# Tarixlə nəfəs alan meydanlar

**İstanbul - əsrlər boyu sivilizasiyaların kəsişmə nöqtəsi olmuş bu şəhər - təkcə sarayları, körpüləri və məscidləri ilə deyil, meydanları ilə də dünya sivilizasiyalarının canlı yaddaşıdır. Bu meydanlar ictimai, siyasi, mədəni və dini kimliyə çevrilmiş nüfuzlu məkanlardır. Hər birində şəhərin keçmişi, bu günü və gələcəyi ilə bağlı saysız izlər mövcuddur.**



Ən qədim və məşhur meydanlardan biri olan **Sultanahmet meydanı** Bizans dövründə "Hipodrom" kimi tanınıb. IV əsrdə imperator Konstantin tərəfindən Roma üslubunda araba yarışları və dövlət tədbirləri üçün tikilib. Hazırda Ayasofya, Sultanahmet Camisi, Alman çeşməsi və İstanbul Arxeologiya Muzeyi kimi abidələr bu meydanda yerləşir.

**(davamı 8-ci səhifədə)**

İSTANBUL

# Tarixlə nəfəs alan meydanlar

(əvvəli 1-ci səhifədə)

Sultanahmet meydanı turistlərin və yerli əhalinin toplaşdığı, fotoşəkillər çəkdirdiyi və tarixlə nəfəs aldığı bir məkandır. Bu meydan həmçinin İstanbulun "ürəyi" adlandırılır. Sultanahmet meydanı UNESCO-nun Dünya İrsi siyahısındadır və dünyanın hər yerindən gələn turistlərin ilk dayanacağıdır.

**Taksim meydanı** yalnız İstanbulun deyil, Türkiyənin də ən simvolik meydanıdır. Adı "bölüşdürmə" mənasını verir. XIX əsrdə su



kəmərlərinin şəhərə paylanma mərkəzi buradan keçib. Bu meydan Respublika Anıtı (Cümhuriyyət abidəsi) ilə tanınır, İstiqlal Caddəsi ilə birləşir və mədəni-siyasi tədbirlərin əsas məkanıdır. Sosial hərəkatların, yürüşlərin və bayram tədbirlərinin keçirildiyi bir yerdir. Bu gün Türkiyənin müasir kimliyinin, söz və ifadə azadlığının və ictimai reaksiyanın simvolu olan Taksim meydanı, həm də teatrlar, kinolar, sərgilər və festivallarla əhatəlidir. Taksim meydanı həm də Türkiyə cəmiyyətinin ruh oxumaq üçün bir barometrdir.



Tarixi Kapalıçarşı və İstanbul Universiteti ilə əhatələnmiş **Beyazıt meydanı** həm tələbələrin, həm alimlərin, həm də alış-veriş sevərlərin sıx olduğu bir yerdir. İmperator I Feodosinin (379-395) dövründə ətrafı sıx tikililərlə formalaşan bu meydanın ortasında "Teodosi sütunu" dayanıb. Bu sütunda imperatorun barbarlara qarşı qələbələrini simvolizə edən relyeflər olub. Onun üzərində imperatorun atlı heykəli və onun oğulları Arkadi və Honoriusun heykəlləri yer alıb. 1204-cü ildə Latın işğalı zamanı sökülən heykəllər əridilib. 1509-cu il zəlzələsi zamanı yıxılan sütunun bəzi parçaları Beyazıt Hamamının divarında da yer tapıb. Bu ərazi son Roma dövründə mal-qara bazarı kimi də istifadə edildiyi üçün "Forum Tauri Buğa" kimi də tanınır.

Bu meydan düşüncənin, elm və təhsilin İstanbulda açıq havada nümayiş etdirildiyi nadir yerlərdəndir. Keçmişdə mitinqlər və siyasi çıxışların keçirildiyi əhəmiyyətli meydanlardan biri hesab olunur.




**Eminönü meydanı** həm keçmişin mirasını, həm də günümüzün canlı şəhər ritmini özündə cəmləşdirən ən mühüm ictimai məkanlardan biridir. Meydan İstanbulun Avropa sahilində, Qızıl Boğaz (Haliç) ilə Bosphorus boğazının birləşdiyi nöqtədə yerləşir. Bu ərazi şəhərin ən qədim limanlarından biri, tarixi yarımadanın mərkəzinə açılan qapıdır. Bərə (vapur) marşrutlarının kəsişmə nöqtəsi olaraq, gündə minlərlə insanın keçidinə şahidlik edir. Eminönü meydanı həm də Sirkeci, Galata körpüsü, Sultanahmet və Kapalıçarşı kimi ərazilərə birləşmə nöqtəsidir.

Eminönü tarixən Osmanlı imperiyasında ticarət və dəniz nəqliyyatı üçün əsas mərkəz olub. Burada xarici tacirlər limanda mallarını boşaldar və bazarlarda satardılar. Səyyahlar İstanbulun ilk təəssüratını məhz bu meydanda alardılar. "Emin" sözü Osmanlıda liman və gömrük işlərinə nəzarət edən məmur mənasını verib. "Eminönü" isə həmin idarəçilik bölgəsinin adı olaraq qalıb.

Bu meydan təkcə bir nəqliyyat və ticarət mərkəzi deyil, həm də mədəniyyət və dini mirasın cəmləşdiyi bir məkandır. Bunlardan Yeni Cami (Yeni Məscid) XVII əsrdə tikilmiş bu möhtəşəm məscid Eminönü meydanına vizual və ruhani dəyər qatır. Məscidin önündəki geniş səhnə insanlar üçün görüş, dua və istirahət yeri hesab edilir. Yalnız tarix və ticarətlə deyil, İstanbulun küçə yeməkləri ilə də məşhurdur. Xüsusilə, balık-ekmek (balıq və çörək) boğaz kə-



narındakı qayıqlarda hazırlanır və yerində yeyilir. Simit, kestane (şabalıd) və turşu suyu klassik İstanbul küçə təamlarıdır. Bu meydan "İstanbulun nəbzi burada döyünür" ifadəsinin canlı təcəssümüdür. Bu meydan təkcə bir coğrafi nöqtə deyil, İstanbulun tarixi yaddaş kitabı, ticarətin can damarı, inancların və mədəniyyətin toqquşduğu və qovuşduğu bir yerdir. Tarixin nəfəsinin hiss edildiyi, dəniz qoxusunun duyulduğu, eyni anda həm keçmişi, həm bu günü yaşadan, insanların ayaq səsləri ilə dirilən bir şəhər simvoludur.

**Misir çarşısı (Ədviyyat bazarı) -** Osmanlı dövründən bəri fəaliyyət göstərən bu bazar, ətirli ədviyyat, quru meyvə, şirniyyat və yerli məhsullarla tanınır. Hər gün minlərlə turist və yerli alıcı bu bazarı ziyarət edir.

**Galata körpüsü -** Asiya və Avropa sahillərini birləşdirən bərə xəttinin əsas mərkəzidir. Körpü üstü balıqçılar, alt qat isə balıq restoranları ilə məşhurdur.

Şəhərin Anadolu (Asiya) tərəfində yerləşən **Üsküdar və Kadıköy meydanları** da təkcə coğrafi mövqeyi ilə deyil, həm də tarixi, mədəni və sosial həyatın mərkəzi olmaları ilə seçilirlər.

Bu iki meydan Boğazın sakit sahillərindən başlayaraq İstanbulun canlı şəhər həyatına açılan qapılardır.

Üsküdar meydanı, İstanbulun Asiya sahilində Bosphorus boğazının sahilində, Avropa tərəfindəki Beşiktaş və Eminönü ilə qarşı-qarşıya yerləşir. Tarix boyu həm gəmiçilik, həm ticarət, həm də dini həyatın mərkəzi oub.

Üsküdar sahilində çay içmək, Günəşin batmasını izləmək və Qız qalasına baxmaq əsl İstanbul ənənəsinə çevrilib. Buradan vapur (bərə) ilə şəhərin müxtəlif hissələrinə keçmək mümkündür. Daha sakit, dindar və klassik bir mühitə malikdir. Mədəniyyət, din və ailə həyatı burada harmonik şəkildə birləşir.

**Kadıköy meydanı** isə İstanbulun ən canlı və enerjili ictimai məkanlarından biridir. Bura gənclər, sənət adamları, intellektuallar və alternativ həyat tərzini sevənlərin toplaşdığı ərazidir. Süreyya Operası, Moda Teatrı, çoxsaylı kitab mağazaları və sərgi salonları bu meydanda yerləşir. Küçə sənəti, canlı musiqi və sərbəst ifadə formaları Kadıköyün ruhunu formalaşdırır.

Üsküdar və Kadıköy meydanları İstanbulun iki fərqli üzünü əks etdirir:

Üsküdar meydanı - tarixin sakit səsi, inancın və ənənənin dərin kökləri, Kadıköy meydanı isə yaradıcılığın, azadlığın və gələcəyin enerjisi sayılır. İstanbulun Anadolu sahilinə ayaq basan hər kəs, bu



iki meydanda bir tarix və gələcək arasında körpü qurur. Bu meydanlar Asiya və Avropanı birləşdirən mədəni körpü funksiyası daşıyır.

Beləliklə, İstanbulun hər meydanı öz içində bir kitab, bir tarix, bir hekayədir. Həm keçmişin izlərini daşıyır, həm bu günümüzü yaşadır. Hər kəs bu meydanlarda öz həyatının bir parçasını tapır - istər sakit bir yürüşdə, istər bir fotoşəkildə, istərsə də tarixi abidənin bir kölgəsində. Bu meydanlar fərqli dövrlərin izlərini, fərqli inancları və fərqli həyat tərzlərini bir məkanda birləşdirir. Hər meydan özlüyündə bir hekayə kitabı, bir səhnə, bir tarix dərsi kimidir.



Şəhəri anlamadan meydanlarını anlamaq mümkün deyil. Çünki meydanlar şəhərin nəbzi, ruhu və yaddaşıdır.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 8 iyul (№ 137).- S.1;8.